“Yaxşı və pis dostun misalı, müşk (ətir) satanla körük vuranın misalına bənzəyir

Əbu Musadan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: “Yaxşı və pis dostun misalı, müşk (ətir) satanla körük vuranın misalına bənzəyir. Ətir satan ya sənə ətir bağışlayar, ya ondan ətir alarsan, ya da ondan xoş bir qoxu duyarsan. Körük vuran isə ya sənin paltarını yandırar, ya da sən ondan pis qoxu duyarsan”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) iki növ insana misal çəkdi: Birinci növ: Allaha və Onun razılığına yönəldən, itaətdə kömək edən saleh yoldaş və dost. O, müşk (ətir) satıcısına bənzəyir, ya sənə ətir verəcək, ya sən ondan pulla alacaqsan, ya da ondan xoş ətir iyisi duyacaqsan. İkinci növ: İnsanları Allahın yolundan azdıran və günah işlətməkdə kömək edən pis yoldaş və dost. Ondan çirkin əməl görərsən, onun kimi bir şəxslə yoldaşlıq edib, onunla oturub-durduğuna görə qınanarsan. O, oda üfürən dəmirçi kimidir; ya uçan qığılcımlarından sənin paltarın yanar, ya da onun yanından pis qoxu duyarsan.

http://sunnah.global/hadeeth/az/show/3127